Tədbirin yüksək səviyyədə təşkili üçün bütün xidmət sahələrinin sabit fəaliyyəti təmin olunacaqdır. C.Cabbarlı adına Dövlət Teatr Muzeyi Akademik Milli Dram Teatrının foyesində nümayiş etdirmək üçün Sidqi Ruhullanın həyat və yaradıcılığına həsr olunacaq foto-sərgi üzərində çalışır və s. və i.a.

# SƏHNƏMİZİN QACARI



*Teatr və kinosevərlər bu günlər korifey sənətkar, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Sidqi Ruhullanın anadan olmasının 120 illik yubileyinə hazırlıq görürlər. Bu məqsədlə rayon və şəhərlərimizdə rəngarəng tədbirlər həyata keçirilir. Təbii ki, yubiliyarın ən möhtəşəm gecəsi Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında nəzərdə tutulub.*

Axundov Ruhulla Fətulla oğlu (Sidqi Ruhulla) 1886-cı il martın 28-də Buzovna kəndində anadan olmuşdur. Müəllim ailəsində dünyaya göz açan Ruhulla ilk təhsilini Bakıda almış, tacir şagirdi işləmişdir. Səhnə fəaliyyətinə 22 yaşında - 1908-ci ildə N.B.Vəzirovun "Adı var, özü yox" komediyasında Telli rolu ilə başlanmışdır.

H.Ərəblinskinin truppasında işləyən Sidqi Ruhulla Rüstəm bəy ("Müsibəti-Fəxrəddin" - N.B.Vəzirov) rolunda uğurla çıxış etmişdir. O, H.Ərəblinski ilə birlikdə Yerevan, Naxçıvan, Tiflis, Batum və Vladiqafqazda verilən tamaşaların iştirakçısı olmuş, sonralar Zaqafqaziya, Şimali Qafqaz, Orta Asiya və Cənubi Azərbaycanın şəhərlərində yerli səhnə həvəskarları ilə birlikdə tamaşalar hazırlamışdır.

Tiflis Azərbaycan Teatrının inkişafında Sidqi Ruhullanın xüsusi xidməti olmuşdur. O, Rəşt və Qəzvində ilk teatr tamaşalarının təşkilatçısı, Təbrizdə milli teatrın yaradıcılarındandır.

Sidqi Ruhulla 1916-cı ildə Daşkənddə Ü.Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarını tamaşaya qoymuş, özbək musiqili dram teatrının inkişafı üçün zəmin hazırlamışdır.

Sidqi Ruhulla yaradıcılığının ilk dövründə Qacar, Fərhad və Hacı Səməd ağa ("Ağa Məhəmməd şah Qacar", "Bəxtsiz cavan"- Ə.B.Haqverdiyev), Nadir şah ("Nadir şah"- N.Nərimanov), Fəxrəddin ("Müsibəti-Fəxrəddin" -N.B.Vəzirov), bələdiyyə rəisi ("Müfəttiş" -N.Qoqol), Şeyx Nəsrullah ("Ölülər" -C.Məmmədquluzadə), Franş, Vilhelm Tell ("Qaçaqlar", "Vilhelm Tell" -F.Şiller) kimi müxtəlif xarakterli obrazlar yaratmışdır.

Sidqi Ruhulla 1913-cü ildə Moskvaya getmiş, rus səhnə xadimlərinin sənətkarlıq xüsusiyyətlərini və yaradıcılıq üslublarını öyrənmişdir. Həmin il o, Ümumrusiya Teatr cəmiyyətinə üzv qəbul olunmuşdur.

1924-cü ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında işləmişdir. Onun Azərbaycan, rus və Qərbi Avropa dramaturqlarının əsərlərinin tamaşalarında yaratdığı obrazlar Azərbaycan teatrı tarixində mühüm yer tutur: Qurban, Nəcəf bəy ("Pəri cadu", "Dağılan tifaq" -Ə.B.Haqverdiyev), Hacı Qara ("Hacı Qara" - M.F.Axundov ), Rüstəm, Dərviş ("Səyavuş", "Şeyx Sənan" - H.Cavid), Atakişi, Əbu Übeyd və Altunbəy, İbad, Volodin ("Sevil", "Od gəlini", "Almas", "1905-ci ildə" - C.Cabbarlı), Ağalarov ("Şərqin səhəri" - Ə.Məmmədxanlı), Süleyman ("Həyat" - M.İbrahimov), Dikoy ("Tufan" - A.Ostrovski), Trojekurov ("Dubrovski" - A.S.Puşkin), Yaqo, Banko ("Otello", "Makbet" - V.Şekspir) və s.

Bütövlükdə, Sidqi Ruhulla 300-dən artıq səhnə obrazı yaratmışdır. "Hacı Qara", "Gilan qızı", "Kəndlilər", "Fətəli xan" filmlərində çəkilmişdir.

1959-cu il mayın 5-də Bakıda vəfat etmişdir.

*Tural*